UOT 94(479.24)

*N.İ.Camalova*
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*Bakı ş., H.Cavid pr., 115*
*E-mail: n.abushova@gmail.com*

# 1918-1920-Cİ İLLƏRDƏ ERMƏNİSTAN (ARARAT) RESPUBLİKASININ AZƏRBAYCANLILARA QARŞI ETNİK TƏMİZLƏMƏ SİYASƏTİ VƏ AXC HÖKUMƏTİNİN GÖRDÜYÜ TƏDBİRLƏR

*Məqalədə Ermənistan Respublikasının 1918-1920-ci illərdə Azərbycan xalqına qarşı həyata keçirmiş soyqırımı və etnik təmizləmə siyasətinə qarşı AXC hökumətinin gördüyü tədbirlər və onların nəticələri nəzərdən keçirilir. Müasir dövrümüzdə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi, sərhədlərin müəyyənləşdirilməsi, vaxtilə erməni siyasi dairələrinin qanunsuz siyasəti nəticəsində öz yurdlarından qovulan Azərbaycanlıların geri dönməsi məsələlərinin ortaya çıxması fonunda məqalədə tədqiq edilən problem olduqca aktuallıq kəsb edir.*

*Məqalədə ilk dəfə Ararat (Ermənistan) Respublikasının həyata keçirdiyi soyqırım və etnik təmizləməyə qarşı AXC hökuməti tərəfindən görülən tədbirlər qruplaşdırılır və onların orjinal təsnifatı verilir. Azərbaycan hökumətinin soyqırımı və etnik təmizləmənin qarşısını almaq üçün həyata keçirdiyi tədbirlər aşağıdakı kimi təsnifləndirilmişdir: 1) Parlamentdə müzakirələr edilir, hökumət səviyyəsində qərarlar çıxarılırdı; 2) Səfirliklər və nümayəndəliklər vasitəsilə böyük dövlətlərin siyasətinə təsir edilirdi; 3) Soyqırımı və etnik təmizləmə nəticəsində zərər çəkmiş əhali himayə edilirdi; 4) İctimai təşkilatlar və Şuralar tərəfindən soyqırıma etiraz edilir və zərər görmüş əhaliyə kömək göstərilirdi; 5) Yerli əhalinin öz təşəbbüsü hesabına soyqırıma qarşı mübarizə aparılırdı.*

*Məqalədə həmçinin ingilis dilində yeni arxiv sənədləri ilk dəfə tədqiqata cəlb edilir.*

*Açar sözlər.* Azərbaycan, Ermənistan, soyqırım, etnik təmizləmə, qaçqın

## *Giriş*

Azərbaycan Xalq Cümhuriyyəti (AXC) hökuməti daim çalışırdı ki, Ermənistanla münasibətləri sülh yolu ilə nizama salsın. Lakin bu mümkün olmadıqda hərb yolunu tutur, ancaq Ararat Respublikasının etdiyi soyqırımı və etnik təmizləmə siyasətini həyata keçirmir, dinc əhaliyə toxunmurdu. AXC hökuməti çalışırdı ki, Ararat Respublikasının soyqırıma məruz qoyduğu azərbaycanlı əhalinin hüquqlarını müdafiə etsin, qaçqınlara maddi və mənəvi köməklik göstərsin. Əlbəttə bu bəzən mümkün olduğu halda, bəzən soyqırımlar və etnik təmizləmə elə sürətlə aparılırdı ki, AXC hökuməti bu vəziyyətin qarşısını almaqda çətinlik çəkirdi. Lakin danmaq olmaz ki, AXC hökuməti daim məsələləri həll etmək üçün diplomatik mübarizə aparır, xarici dövlətlərdən soyqırımların qarşısının alınması istiqamətində yardım istəyir, qəti tədbirlər görülməsini tələb edirdi.

Müasir dövrümüzdə 44 günlük Vətən müharibəsindən sonra Azərbaycan-Ermənistan münasibətlərinin tənzimlənməsi, sərhədlərin müəyyənləşdirilməsi, vaxtilə erməni siyasi dairələrinin qanunsuz siyasəti nəticəsində öz yurdlarından qovulan Azərbaycanlıların geri dönməsi məsələlərinin ortaya çıxması fonunda məqalədə tədqiq edilən problem olduqca aktuallıq kəsb edir.

Məqalədə Ararat (Ermənistan) Respublikasının həyata keçirdiyi soyqırım və etnik təmizləməyə qarşı AXC hökuməti tərəfindən görülən tədbirlər qruplaşdırılır və onların ilk

dəfə orjinal təsnifatı verilir. Azərbaycan hökumətinin soyqırımı və etnik təmizləmənin qarşısını almaq üçün həyata keçirdiyi tədbirlər aşağıdakı kimi təsnifləndirilmişdir: 1) Parlamentdə müzakirələr edilir, hökumət səviyyəsində qərarlar çıxarılırdı; 2) Səfirliklər və nümayəndəliklər vasitəsilə böyük dövlətlərin siyasətinə təsir edilirdi; 3) Soyqırımı və etnik təmizləmə nəticəsində zərər çəkmiş əhali himayə edilirdi; 4) İctimai təşkilatlar və Şuralar tərəfindən soyqırıma etiraz edilir və zərər görmüş əhaliyə kömək göstərilirdi; 5) Yerli əhalinin öz təşəbbüsü hesabına soyqırıma qarşı mübarizə aparılırdı.

Məqalədə həmçinin ingilis dilində yeni arxiv sənədləri ilk dəfə tədqiqata cəlb edilir.

### *1.Daxili-siyasi mübarizə tədbirləri*

Hələ AXC yaradılmamışdan əvvəl Zaqafqaziya Seyminin Müsəlman fraksiyası soyqırımın qarşısını almaq üçün tədbirlər görürdü. Azərbaycan fraksiyasının soyqırım və etnik təmizləmənin qarşısının alınması istiqamətində tədbirlər görülməsi tələbi müsbət nəticə verir, 1918-ci il fevralın 18-də İrəvana hadisələri araşdırmaq məqsədilə istintaq komissiyası göndərilir. Komissiyanın səyi nəticəsində İrəvanda müvəqqəti də olsa asayiş bərpa olunur [8, s.143].

Azərbaycan fraksiyasının nümayəndələri Çxenkeli hökumətindən ermənilərə xəbərdarlıq edilməsini tələb edirdi. Seymin müsəlman fraksiyasının 1918-ci il 10 aprel tarixli iclasında qərara alınır ki, *"A.Çxenkelidən tələb edilsin ki, İrəvan quberniyasındakı müsəlmanların həyatı və əmlakının mühafizəsi məsələsi ilə bağlı ən təcili və təxirəsalınmaz tədbirlər görsün: Daxili İşlər Nazirinə tapşırılsın ki, müsəlmanlara kömək məqsədilə xüsusi komissiya göndərilsin; ermənilərin təşkil etdiyi azğınlaşmış hərbi hissələr buraxılsın"* [21, s. 11-12 (60-61)].

AXC elan edildikdən sonra Milli Şuranın iclaslarında da Ermənistan hökumətinin azərbaycanlılara qarşı soyqırım və etnik təmizləmə məsələləri müzakirə olunur, tədbirlər görülməsinin vacibliyi vurğulanırdı.

1918-ci il iyunun 13-də keçirilən Azərbaycan Milli Şurasının iclasında ikinci məsələ ermənilərin azərbaycanlılara qarşı törətdiyi qırğınlar barədə İrəvandan gələn xəbərlərə həsr olunur. Çıxış edən Şura üzvü İbrahim ağa Vəkilov İrəvandakı qırğınlar barədə ətraflı məlumat verir. O, öz sözlərini zərər çəkmişlərin sayı və dağıdılmış 206 kəndin adlarını sadalamaqla bitirir [21, s. 23 (85-86)].

Ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımları dünya ictimaiyyətinin diqqətinə çatdırmaq, azərbaycanlılar haqqında erməni təbliğatı nəticəsində Avropada formalaşmış səhv ictimai fikri təkzib etmək üçün 1918-ci il iyulun 15-də Azərbaycan Respublikasının Nazirlər Şurası Fövqəladə İstintaq Komissiyasının yaradılması haqqında qərar qəbul etdi [12, s. 33]. Bu təşkilat bütün zorakılıq hallarının dəqiq qeydiyyatını aparmalı, bu zorakılığın törədildiyi şəraiti aydınlaşdırmalı, günahkarları və dəyən zərərin həcmini müəyyən etməli və Fövqəladə Təhqiqat Komissiyası xarakteri daşımalı, komissiyanın işi başlıca Avropa dillərində (rus, fransız, alman, türk dilində) çap edilməli və geniş yayılmalı idi [18, s. 81-82].

1918-ci il avqustun 31-də AXC hökumətinin sədri, Ədliyyə naziri F.X.Xoyskinin Gəncə şəhərində imzaladığı qərara əsasən 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyası yaradılır. Komissiyanın sədri Ələkbər bəy Xasməmmədov, üzvləri - Gəncə dairə məhkəməsinin üzvləri – İsmayıl bəy Şahmalıyev, Andrey Fomiç Novatski, həmin dairə məhkəməsi prokrorunun müavini Nəsrəddin bəy Səfikürdski, Gəncə köçürmə idarəsindən Nikolay Mixayloviç Mixaylov, həqiqi mülki müşavir V.V.Qubvillo və müəllim Mirzə Cavad Axundzadə təyin olunurlar [20, s. 92; 12, s. 34]. 1919-cu il avqustun 27-i üçün komissiya

üzvləri Cənubi Qafqazda müsəlman əhaliyə qarşı ermənilər tərəfindən törədilən soyqırım aktlarına dair 36 cilddə toplanmış 3500 səhifəlik istintaq materialları hazırlamışdı [10, s. 222].

Daha sonra Fövqəladə İstintaq Komissiyasının gördüyü işləri dünya ictimaiyyətinə, Paris sülh konfransındakı ölkələrin təmsilçilərinə çatdırmaq üçün Xarici İşlər Nazirliyinin nəzdində xüsusi təbliğat bölməsi yaradıldı [20, s. 82]. Komissiyanın materiallarından Parisdə konfrans iştirakçılarını faktlarla təmin etmək və erməni yalanlarının ifşası üçün istifadə olundu.

1918-ci il dekabrın 7-də AXC parlamenti fəaliyyətə başlayandan sonra iclaslarda dəfələrlə azərbaycanlılara qarşı Ermənistan hökumətinin soyqırımı məsələləri müzakirə olunur, qərarlar qəbul edilir. İrəvanda azərbaycanlılara qarşı həyata keçirilən soyqırımları Azərbaycan Xalq Cümhuriyyəti hökumətini çox narahat edirdi. Parlamentdə İrəvan məsələsi bir neçə dəfə iclas gündəliyinə salınmış, parlament üzvləri məsələ ilə bağlı dəfələrlə öz çıxışlarında həyəcanla danışmışdır (1919-cu il 7-ci, 9-cu, 29-cu, 52-ci, 53-cü, 56-cı, 57-ci, 90-cı, 1920-ci il 115-ci, 132-ci iclaslar) [4, c. 1; 5, c. 2].

Parlamentin 25 yanvar 1919-cu il tarixli 9-cu iclasında İrəvan bölgəsində azərbaycanlılara qarşı həyata keçirilən soyqırımları ilə bağlı bəyanat da qəbul olunmuşdu. Bəyanatda Naxçıvan və Şərur uyezdlərində və İrəvan quberniyasının digər yerlərində türklərin yenidən qırğına məruz qaldığı qeyd edilir və bildirilirdi ki, *“Hələ erməni-gürcü konfransında əsgər tərxisi müzakirə edildikdə ermənilər demişdilər ki, bizim daxili düşmənlərimiz var, onları tabe etmək üçün əsgər lazımdır. Məgər bu düşmənlər heç kəsə qul olmaq istəməyib, müstəqil yaşamaq arzusunda olan müsəlmanlar imiş. Hökumət bu xüsusda tədbirlər görməlidir”* [4, c.1, s.142].

Parlamentin 17 iyul 1919-cu il, 56-cı iclasında Qarabəy Qarabəyli qeyd edirdi: *“Ermənistandan (İrəvan) gələn yüzlərlə teleqraf və ərizələrdən aydın olur ki, rəsmi erməni dövlətinin gözü qarşısında müsəlman əhali qırğınlardan əziyyət çəkir. Ermənistanda müsəlmanlar üçün yaşamaq mümkün deyildir”.* Q.Qarabəyli həmçinin Ermənistandakı müsəlman kəndlərindən əhalinin zorla çıxarılması, həmin evlərin erməni sakinlərə verilməsi və buna görə də müsəlman əhalinin geri qayıdıb əvvəlki yerlərində məskunlaşa bilməməsi, bu cür qanunsuz işlər barədə Ermənistan hökumətinə şikayət edilsə də heç bir tədbirin görülməməsi vurğulanırdı [4, c. 1, s. 625-626].

Parlamentdə (1918-ci ildə 4-cü, 6-cı, 1919-cu ildə 7-ci, 9-cu, 16-cı, 21-ci, 29-cu, 30-cu, 35-ci, 46-cı, 50-ci, 52-ci, 53-cü, 55-ci, 56-cı, 68-ci, 80-ci, 83-cü, 88-ci, 109-cu, 1920-ci ildə 125-ci, 132-ci, 137-ci, 140-cı iclaslar) erməni silahlı birləşmələrinin Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan kimi bölgələrində həyata keçirdiyi soyqırım və etnik təmizləmə siyasəti müzakirə edilmiş, tədbirlər görülmüşdü [4, c.1; 5, c.2].

Parlamentin 52 və 53-cü iclaslarında Qarabağa göndərilən nümayəndə heyətlərinin məruzələri dinlənilmiş, oradakı hərcmərclik müzakirə edilmişdi. Parlamentin 1919-cu ilin 17 iyulunda keçirilmiş 56-cı iclasında Qarabağ məsələsi ilə bağlı 2 təklif irəli sürülür.

1 - Erməni fraksiyasının təklifi: Erməni fraksiyası parlament üzvlərindən təşkil edilmiş heyətin məruzəsini və hökumət başçısının Qarabağda iyul ayının əvvəllində baş vermiş hadisələrə dair bəyanatını dinləyərək arzu edir ki, hökumət tərəfindən hadisələrə dair general qubernator səlahiyyətindən kənarda istintaq təyin edilərək müqəssirlər kimliyindən asılı olmayaraq mühakimə edilsin.

2 – “Müsavat”ın təklifi: Qarabağdakı hadisələrlə bağlı hökumətin bəyanat və məlumatını dinləyərək və yerli hökumətin, general qubernatorun əməl və fəaliyyətində heç bir qanunsuzluq əlaməti görməyərək Məclisi-Məbusan bu hadisənin həll edilməsi üçün hökumət tərəfindən tədbirlərin görüldüyünü əsas gətirərək növbədəki məsələlərin müzakirəsinə keçir

[4, c.1, s.636]. Erməni və müsəlman fraksiyasının Qarabağa dair təklifləri dinlənilərək Müsavatın təklifi səs çoxluğu ilə qəbul edilir [4, c.1, s.636].

*2.Diplomatik mübarizə*

Azərbaycan hökuməti diplomatik nümayəndəliklər vasitəsilə Ermənistan hökumətinin azərbaycanlılara qarşı qırğınlar törətməsi barədə dünya ölkələrinin səfirlərinə, məlumat verir Ermənistan hökumətinə notalar göndərir, soyqırımın qarşısının alınması üçün tədbirlər görülməsini xahiş edirdi.

Ermənilər işğalçılara qarşı Antanta tərəfində döyüşmək adı altında ingilislərdən pul yardımı alırdılar. İngilislər bu pulu hələ də erməni ordusunda xidmət edən rus zabitləri vasitəsilə ünvana çatdırırdı. Azərbaycan hökuməti bundan xəbər tutan kimi dərhal lazımi tədbirlər gördü, Ermənistana gedən qatarlar saxlanılaraq yoxlanıldı və ingilislər məlumatlandırıldılar ki, ermənilər bu pulu yerli müsəlmanları qırmaq, etnik təmizləmə siyasətini həyata keçirmək üçün xərcləyirlər. Çox keçmədən ingilislərin işğal edilmiş ərazilərdə Ermənistan ordusunun formalaşması üçün Rus heyəti vasitəsilə göndərdiyi pullar müsəlman kəndlərində qırğınlar üçün istifadə olundu. Bu məlumat kapitan Payka (ingilislərin Qafqazda hərbi rəhbəri) çatanda o, Ermənistan ordusunun formalaşması üçün Rus heyətinə pul ödəməkdən imtina etdi [6, s. 67-73].

1919-cu ilin iyulunda Azərbaycanın Ermənistandakı nümayəndəsi Ermənistan hökumətinə müsəlmanlara qarşı yönəldilmiş qanunsuz hərəkətlərə son qoyulmasını əks etdirən nota göndərir. Ermənistan hökumətinin cavabında qeyd edilir ki, belə qanunsuz hərəkətlər, zorakılıqlar guya Ermənistanda mövcud deyil və Təkinskinin notası Ermənistanın daxili işlərinə qarışmaqdır [4, c. 1, s. 626].

Tehrandakı ingilis nümayəndəsi Ser P.Koksun 22 dekabr 1918-ci il tarixli teleqramında deyilirdi: *"Azərbaycan Respublikasının Təbrizdəki konsulu İspan konsulundan xahiş edirdi ki, Britaniya və Birləşmiş Ştatlar hökumətinə ermənilərin Qafqazda müsəlman əhaliyə qarşı qırğınlar törətməsi barədə məruzə etsin".* P.Koks həmçinin İrəvandakı Erməni Milli Şurasının erməni qaçqınlarını müsəlmanların əmlakına yiyələnməyə dəvət etməsini, müsəlmanların isə ermənilərin mülkə sahib olmalarına etirazını, oxşar vəziyyətin Qarabağda da mövcudluğunu qeyd edirdi [6, s. 171].

İran xarici işlər naziri ingilis nümayəndəsi P.Koksa teleqram göndərərk Britaniya missiyasının İrəvan, Naxçıvan, Qars və bütün Ermənistan sərhəddi boyunca ermənilər tərəfindən müsəlman əhaliyə qarşı törədilən qırğın və talanlardan xəbərdar olduğunu, göstərilən ərazilərdə ermənilərin milliyyətindən asılı olmayaraq müsəlmanlara qarşı hər cür zorakılıq hərəkətləri etdiyi, kişi, qadın və uşaqları qırdığı, əmlaklarının talan edilməsi, kəndlərin dağıdılması barədə xarici işlər idarəsindən məlumat aldığını, bu əməllərin cəzasız qalmayacağını bildirir və qeyd edirdi: *"Böyük Güclərin xalqların azadlığına və irqi və dini ayrıseçkiliyə yol vermədən insan hüquqlarına hörmət etməsinə ümid edərək xarici işlər idarəsi ingilis missiyası vasitəsilə Britaniya hökumətindən xahiş edir ki, erməniləri bu cür pis əməllərdən çəkindirsin və Ermənistan sərhəddindəki dinc əhalini himayə etsin"* [6, s. 245-246].

Azərbaycan diplomatiyasının səyləri nəticə verirdi. Əvvəllər erməni təbliğatına uyub müsəlmanlara biganə qalan müttəfiq dövlətlərin Qafqazdakı nümayəndələri hadisələri tədqiq etdikdən sonra Ermənistandan qırğınların dayandırılmasını tələb etməyə başladılar. 22 yanvar 1919-cu ildə Cənubi Qafqazda müttəfiq orduların baş komandanı general C.F.Miln Azərbaycan hökumətinin tanınmasını təsdiqlədi və qeyd etdi ki, *"Cənubi Qafqaz ölkələrinin daxili işlərinə heç bir vəchlə müdaxilə edilməyəcək"* [3, s. 118].

Azərbaycan hökumətinin etiraz notaları, V.M.Tomsonun hökumət adamları ilə söhbətləri nəticəsində həqiqət üzə çıxarılmış, əsl günahkarların ermənilər olduğu aydınlaşmışdı. Belə olan halda Ermənistan hökuməti məcbur oldu ki, öz cinayətlərini qəbul etsin. Məsələn, Ermənistan XİN Tiqranyan yanvarın sonlarında Basar-Keçərdə baş verən qırğınlarda erməni əsgər və zabitlərinin əli olduğunu etiraf edirdi. O, AXC XİN-nə göndərdiyi məktubunda hökuməti tərəfindən ciddi tədbir görüldüyünü, cinayətkarların ciddi cəzalandırılacağını yazırdı [15].

Daha sonra Tiqranyan general V.M.Tomsona məlumat verirdi ki, bütün azərbaycanlılar Basar-Keçərə qayıdıblar və onların bütün talan edilmiş əmlakları geri qaytarılıb. Günahkarlar məsuliyyətə cəlb olunurlar [14].

AXC beynəlxalq arenada da ermənilərin təcavüzkar əməllərini ifşa etmək və soyqırımların qarşısını almaq üçün mübarizə aparırdı. Əli Mərdan bəy Topçubaşovun sədrlik etdiyi nümayəndə heyətinin Paris Sülh konfransına təqdim etdiyi "Qafqaz Azərbaycan Cümhuriyyəti Sülh Heyətinin Paris Sülh Konfransından tələbləri" adlı sənədin beşinci bölməsinə ermənilərin Bakıda törətdiyi qırğınlar və təcavüzkar hərəkətləri barədə məlumat da daxil idi. Burada ermənilərin azərbaycanlılara qarşı törətdikləri soyqırımı haqqında məlumat verilir, müsəlmanlara qarşı vəhşiliklərin həyata keçirilməsində Erməni Milli Şurası (Bakı bölməsi) tərəfindən idarə olunan erməni hərbi birləşmələrinin də iştirak etdiyi bildirilirdi [9, s.36-38].

AXC hökuməti Ermənistanın təcavüzkar siyasəti nəticəsində öz yurd-yuvalarından qaçqın düşmüş azərbaycanlıların vəziyyətinin yaxşılaşdırılması, onların yerləşdirilməsi, ərzaqla təminatı məsələlərinə hər zaman diqqətlə yanaşmış, öz daxili imkanları hesabına müəyyən tədbirlər görmüşdü. Qaçqınlar problemi ilə məşğul olmaq üçün hələ 1918-ci ilin martında Zaqafqaziya Seymində Müsəlman fraksiyasının qaçqınlar şöbəsi yaradılmışdı [1, s.76].

*3.Qaçqınlara yardım*

Müsəlman fraksiyasının 1918-ci il 10 aprel iclasında İrəvan quberniyasındakı soyqırımlardan canını qurtara bilib Azərbaycanın digər bölgələrinə üz tutan 80 min qaçqının vəziyyəti ilə bağlı məruzələr dinlənilmişdi. İclasın sonunda qərar qəbul edilmişdi ki, *"Çxenkeli hökumətindən təcili tədbirlər görülməsi tələb edilsin: Bütün müsəlman qaçqınlar öz yerlərinə qaytarılsın; onlara təcili ərzaqköməyi göstərilsin; qaçqınların vəziyyəti və sayı müəyyən edilərək onlar üçün əlavə vəsait ayrılsın"* [21, s. 11-12 (60-61)].

AXC elan edildikdən sonra Milli Şuranın iclaslarında da Ermənistan hökumətinin yeritdiyi etnik təmizləmə siyasəti nəticəsində qaçqına çevrilmiş azərbaycanlılara kömək məsələləri müzakirə edilirdi. 1918-ci il iyunun 1-də Tiflisdə keçmiş Canişin sarayında H.Ağayevin sədrliyi ilə keçirilmiş Müsəlman Milli Şurasının üçüncü iclasında Şura üzvləri İrəvanın Ermənistana güzəştə gedilməsi və qaçqınlara köməyin təşkili ilə əlaqədar İrəvana xüsusi nümayəndə heyətinin göndərilməsinin vacibliyi məsələsini də qaldırırlar. Təklif qəbul edilir. M.H.Seyidov, M.Rzayev və M.Y.Cəfərovdan ibarət nümayəndə heyətini İrəvana göndərmək qərara alınır [21, s. 22 (83-84)].

Lakin nümayəndə heyəti İrəvana gedib çatmır. İrəvanda baş verən hadisələrin gərginliyi, soyqırımın davam etməsi və təcavüzkar erməni hökumətinin heç bir məsələdə Azərbaycan hökuməti ilə hesablaşmaması nümayəndə heyətinin İrəvana gedə bilməməsinə təsir edən amillərdən idi. İrəvanda etnik cəhətdən təmiz ərazi yaradılmasını planlayan Ararat (Ermənistan) Respublikası da nümayəndə göndərilməsini istəmirdi.

Azərbaycan Milli Şurasının iyunun 13-də Tiflisdə keçirilən iclasında Ermənistan Respublikasının yeritdiyi soyqırımı və etnik təmizləmə siyasəti nəticəsində qaçqınların

düşdüyü acınacaqlı vəziyyət müzakirə olundu. Çıxış edən İ.Vəkilovun sözlərindən aydın olur ki, İrəvan quberniyası ərazisindəki müsəlman qaçqınların sayı 150 min nəfərə çatmışdır. Qaçqınlar arasında epidemiya xəstəlikləri geniş yayılmış, hər gün acından ölənlər qeydə alınır. Ona görə də təcili olaraq qaçqınlara ərzaq, geyim və təsərrüfat malları ilə köməklik göstərilməsi təklif olunur. Milli Şuranın Ermənistan Respublikasındakı qaçqınların vəziyyəti ilə əlaqədar qəbul etdiyi qərarda göstərilirdi: "*İrəvan dairəsinə qaçqınlara paylamaq üçün pul vəsaiti göndərilsin; Erməni Milli Şurasından xahiş edilsin ki, imkan daxilində aclıq çəkən müsəlmanlara ərzaq yardımı göstərsin; Türk ordusu komandanlığından isə xahiş edilsin ki, İrəvan qaçqınlarına ərzaqla kömək etsin və müsəlmanların öz doğma kəndlərinə qayıtmaları üçün tutarlı göstərişlər versin"* [21, s. 23 (85-86)].

1919 il iyunun 23-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti Qaçqın və məcburi köçkünlərlə bağlı komissiyanın yaradılması haqqında qərar qəbul etdi. Qərarın birinci bəndinə əsasən, Bakı şəhərində qaçqınların ehtiyaclarını müəyyənləşdirmək üçün Əkinçilik, Daxili İşlər və Himayədarlıq nazirlikləri nümayəndələrindən ibarət Mərkəzi komissiya, quberniya və qəzalarda isə ona tabe olan yerli komissiyalar yaradılmalı idi. İkinci bəndə görə, xarici işlər naziri, qaçqınlar məsələsinin həllini asanlaşdırmaq və beynəlxalq komissiya yaratmaq məqsədilə Ermənistan Respublikası ilə əlaqə saxlamalı idi [7, c. 2, s. 98].

AXC parlamenti də qaçqınlar məsələsini hər zaman gündəmdə tutmuş, tətbirlər görmək üçün çalışmışdır. Parlamentin iclaslarında (20 iclas) (1919-cu ildə 8-ci, 9-cu, 49-cu, 54-cü, 55-ci, 56-cı, 59-cu, 64-cü, 82-ci, 83-cü, 84-cü, 86-cı, 90-cı, 99-cu, 109-ci, 110-cu, 1920-ci ildə 114-cü, 115-ci, 127-ci, 132-ci iclaslar) məsələ müzakirə olunmuş, tədbirlər görülməsi üçün qərarlar qəbul edilmişdir [4, c. 1; 5, c. 2]. Parlamentin 17 iyul 1919-cu ildə keçirilən 56-cı iclasında Ermənistandakı müsəlman qaçqınlarına yardım etmək üçün smetadan xaric olaraq üç milyon rubl buraxılması haqqında qanun qəbul edilir [4, c. 1, s. 630]. 1919-cu ilin avqustunda isə ümuri-xeyriyyə nəzarətinə qaçqınlara sərf etmək üçün 18 milyon pul buraxılır [5, c. 2, s. 173].

Parlamentdə İrəvandakı hadisələrlə bağlı hökumətin tədbir görəcəyi qərara alınsa da nəticəsi olmurdu, İrəvanda müsəlman əhalisi qırğınlara məruz qalır, qaçqın kimi Azərbaycan Xalq Cümhuriyyətinin digər ərazilərinə köçməyə məcbur olurdular. Parlamentin 11 oktyabr 1919-cu il, 82-ci iclasında Zəngəzurda 27 min qaçqının acınacaqlı vəziyyəti və onlara edilən yardımın yetərsiz olduğu geniş müzakirə edilir [5, c. 2, s.172, s. 174].

Qaçqınlar məsələsi parlamentin sonuncu iclaslarınadək müzakirə olunur. Çünki AXC hökumətinin bütün xəbərdarlıqlarına və səylərinə baxmayaraq Ermənistan hökuməti öz təcavüzkar siyasətindən əl çəkmir, azərbaycanlıları öz torpaqlarından qovmağa davam edirdi. Parlamentin 114-cü iclasında (5 yanvar 1920) məruzəçi Mustafa Vəkilovun çıxışından məlum olur ki, "*Azərbaycanda Ermənistandan qaçıb gələn 300 mindən çox qaçqın var. Onların bir qismi öz yurdu dağılıb, adamları qırılıb qaçan, əlsiz-ayaqsızlar, digər qismi gələcək talandan və qətl-qarətdən qorxub qaçanlardır"* [5, c. 2, s. 523].

Naxçıvan-Zəngibasar nümayəndələri "Naxçıvan-Zəngibasar rayonunda vəziyyət" barədə 1920-ci ilin 15 oktyabrında "Kommunist" qəzetində çap etdirdikləri məqalədə qeyd edirdilər ki, Zəngibasar, Vedibasar, Şərur, Şahtaxtı, Dərələyəz sakinlərinin əmlakları talan edilmiş, 500 min sakin yoxsula çevrilmiş, 45 min qaçqın aclıqdan və xəstəlikdən məhv olmuş, təxminən 70 min köçkün İranda yerləşdirilmişdir [119, s. 84].

Parlamentin 8 yanvar 1920-ci il, 115-ci iclasında məruzəçilər qaçqınların yaranma səbəbinin aradan qaldırmaq üçün Ermənistan hökuməti ilə diplomatik danışığa gedilməsini təklif edirdilər [5, c. 2, s. 527]. Lakin Ermənistanla diplomatik danışıqlar heç bir nəticə vermirdi. Çünki Ermənistan hökuməti soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirirdi

və ərazi iddialarını əsaslandırmaq üçün bu ona lazım idi. Ermənistan Avropanın böyük dövlətlərinə sübut etməli idi ki, yaşadıqları ərazilərdə ermənilər çoxluq təşkil edir.

AXC hökuməti nazirlik səviyyəsində də soyqırımı və qaçqınlar məsələsini həll etməyə çalışmışdı. 1918-ci ilin oktyabrında yaradılmış Himayəçilik nazirliyinin qarşısında 2 əsas vəzifə dururdu: 1. Qaçqınlar: Qaçqınlara zəruri ehtiyaclarını qarşılamaq, onları torpaq və işlə təmin etmək. 2. Himayəçilik: Azyaşlı yetim uşaqların, kasıbların vəziyyətinin yaxşılaşdırılması üçün tədbirlər görmək [1, s. 79-80].

Himayəçilik Nazirliyinin müvəkkili Makinskinin və doktor Qənizadənin 21 dekabr 1919-cu ildə nazirliyə göndərdikləri hesabatlar əsasında hazırlanan məruzədə bildirilirdi ki, 1919-cu ilin payızına qədər İrəvan quberniyasında və Cənub-Qərbi Azərbaycanda qaçqınların sayı 150 minə çatır. İrəvan qəzasında 25 mindən artıq, Eçmiədzin qəzasında da bir o qədər, İrəvan şəhərində 13 min qaçqın və yerli əhali toplanıb. Novo-Bəyazid qəzasında Göyçə gölünün şərq sahili istisna olmaqla müsəlman qalmayıb [17].

Ermənistan dövlətinin təcavüzü nəticəsində Naxçıvanla əlaqə kəsildikdə Əli xan Makinski Amerika missiyası vasitəsilə bölgədəki qaçqınlara yardım edilməsi istiqamətində də işlər gördü. O, 1919-cu ilin oktyabrın 1-də XİN-nə məlumat verirdi ki, Amerika missiyası vasitəsilə Naxçıvanla əlaqə qurulmuşdur və qaçqınlara ərzaq, pul, tibbi ləvazimat və digər bağlamalar bizim tərəfdən göndərilə bilər [16].

AXC XİN də Qafqazdakı xarici ölkə nümayəndələrinə qaçqınların vəziyyəti ilə bağlı vaxtaşırı məlumat verir və onlardan kömək etmələrini xahiş edirdi. Azərbaycan hökuməti İrəvan mahalının müsəlman nümayəndələrinin xahişi ilə müsəlman və erməni toqquşmaları nəticəsində xəsarət alanlara və qaçqınlara buraxılmış 1 mln pulu çatdırmaq və qaçqınların dəqiq vəziyyətini öyrənmək üçün Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Millistana öz nümayəndələrini – T.Makinski, R.İsmayılov və həkim Qənizadəni göndərilməsinə qərar verdi. Həmin şəxslərlə birgə Müsəlman qaçqınların vəziyyəti barədə hakimiyyətə xəbər vermək və kömək istəmək məqsədilə Bakıya gəlmiş müsəlman əhalinin nümayəndələri Bağır Rzayev, Məhərrəm Əliyev, Əli Əşrəf Kazımov, Hüseyn Cavid, Əsəd Manafov, Bəhran xan və Əziz xan Naxçıvanski hakimiyyət nümayəndələri də geri qayıtmaq niyyətində idilər. Ermənilərin təcavüzü və qırğınları nəticəsində yollar təhlükəli olduğundan Azərbaycan hökuməti ingilislərdən yardım istədi. XİN F.Xoyski general Tomsona müraciət edərək bildirirdi: *Sizdən xahiş edirəm ki, 1) nümayəndəni maneəsiz olaraq göstərilmiş rayonlara qayıtmağına sərəncam verəsiniz; 2) mümkündürsə nümayəndəyə yol boyu ingilis əsgərlərindən mühavizəçilər verəsiniz; 3) ingilis hakimiyyətinə göstərilmiş rayonlara kömək etmək haqqında məktub göndərəsiniz”* [13].

*4.Yerli əhalinin mübarizəsi*

1918-1920-ci illərdə Ararat Rerspublikasının Azərbaycan xalqına qarşı yönəltdiyi soyqırım və etnik təmizləmə siyasətindən əziyyət çəkən yerli əhali öz imkanları hesabına düşdükləri acınacaqlı vəziyyətdən çıxmağa çalışmış, problemlərin həlli üçün bir sıra ictimai təşkilatlar yaratmışdır. Bu ictimai təşkilatlar həm iki qonşu (AXC və Ararat) ölkə arasında münasibətləri normallaşdırmağa çalışaraq soyqırımların qarşısını almağa cəhd göstərir, həm də Ararat Respublikasının yürütdüyü etnik təmizləmə siyasəti nəticəsində vətənlərindən didərgin düşmüş azərbaycanlı qaçqınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlər görürdü. İctimai təşkilatlar həm də AXC hökumətini cəbhədəki siyasi və hərbi vəziyyət barədə məlumatlandırmaq işini də həyata keçirirdi.

1918-ci ilin sentyabrında bir sıra erməni və müsəlman ictimai xadimləri tərəfindən Bakıda yaradılmış Qafqaz Xalqlarının Birliyi və Həmrəyliyi Liqası adlı ictimai təşkilat türklər və ermənilər arasında həmrəylik və dostluq yaratmaq məqsədilə təbliğat aparırdı [18, s. 83].

1905-ci ildə yaradılmış Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti də ermənilərin törətdiyi soyqırımın qarşısını almağa çalışmış, qaçqınlara ərzaq və yer yardımı etmişdir. Himayədarıq Nazirliyi Müsəlman Xeyriyyə cəmiyyətinin vasitəçiliyi ilə Qars əyalətindən qaçqın düşərək Bakıda məskunlaşan 700 nəfərin gündəlik çörəklə təminatını öz üzərinə götürmüşdü [7, c. 2, s. 100].

Xeyriyyə cəmiyyətlərinin hamısı sovet işğalına qədər əllərindən gələn köməyi əsirgəmədilər. Sovet işğalından sonra onlar ləğv edildilər.

Azərbaycanın soyqırıma məruz qalmış Ararat (Ermənistan) Respublikası ilə sərhəd bölgələrinin əhalisi şəxsi təşəbbüsləri ilə müxtəlif rəsmi dairələrə məktublar yazaraq əhalinin qırğınının qarşısını almağa çalışır, ermənilər tərəfindən həyata keçirilən etnik təmizləmə siyasəti barədə məlumatlar yayırdılar. Hələ Batum danışıqlarının gedişində Gəncə və İrəvan Müsəlman Milli Şuraları, Ümumqafqaz Müsəlman Mərkəzi Komitəsi Sədrəzəm Talat paşaya Naxçıvan, Qarabağ, İrəvan bölgələrindəki müsəlmanların ermənilər tərəfindən qırğına məruz qalmaları haqqında müraciətnamə göndərdilər. Məktubda ruslardan qalan silah-sursatın erməni dəstələrinin əlinə keçdiyi, müsəlmanların özlərini müdafiə etmək üçün Qafqaz hökumətindən silah ala bilmədikləri, buna görə də müsəlmanların ermənilər tərəfindən qətlə yetirildiyi, öz yerlərindən qovularaq etnik təmizləməyə məruz qaldıqları bildirilirdi [2, s. 143-144]. Bununla bölgənin müsəlmanları konfrans iştirakçılarına ermənilərə dövlət yaradılarsa nəticələrinin acınacaqlı olacağı mesajını verirdilər.

Müxtəlif bölgələrdən olan ayrı-ayrı nüfuzlu şəxslər də yerli türk əhalinin qırğınlardan qorumaq üçün müxtəlif işlər görür, maliyyə yardımı edirdilər. Onlara Bakıda H.Z.Tağıyev, Naxçıvanda Kəlbalı xan, Şərurda Fətulla bəy Hüseynov, Zəngəzurun Oxçu və Pirdavdan kəndlərində Mustafa bəylə Cəlil kişi, Vedidə Abbasqulu bəy Şadlinski, Çivədə Balabəy Vəkilov, Laçında Sultanov qardaşları (Sultan, Xosrov bəylər və s.) misal göstərilə bilər [11, s. 61].

*Nəticə*

Beləliklə, Ararat (Ermənistan) Respublikasının Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı və etnik təmizləmə siyasətinə qarşı AXC hökuməti, ictimai təşkilatlar, nümayəndəliklər və yerli əhali aramsız mübarizə aparmış, ortaya çıxan problemlərin (qaçqınların vəziyyəti, humanitar yardımların göndərilməsi, müsəlman əhalisinin fiziki məhvi, sosial-iqtisadi çətinliklər) həlli istiqamətində bir sıra tədbirlər görmüşdür. Görülən tədbirlərin qaçqınların yerləşdirilməsi və sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması, xarici missiyalar vasitəsilə münaqişə bölgələrinə yardımların çatdırılması, əhalinin qırğınının qarşısını almaq məqsədilə hərbi müdaxilələrin edilməsi, günahkarların cəzalandırılmasına nail olunması kimi müsbət nəticələri olmuşdur.

ƏDƏBİYYAT


1. Arzumanlı, V. Tarixin qara səhifələri. Deportasiya, soyqırımı, qaçqınlıq / V.Arzumanlı, N.Mustafa. Bakı: Qartal, 1998. 218 s.
2. Azerbaycan Cumhuriyeti 1918-1920 (Osmanlı Arşiv Belgeleri) / neşre hazırlayanlar Q.E.Şükürov, V.V.Qafarov. İstanbul: Bilnet Matbaacılık ve Yayıncılık. A.Ş., 2018. 708 s.
3. Azərbaycan rəqəmlərdə, cədvəllərdə, xəritələrdə və fotolarda / tərt.ed. Ç.Ə.Sultanov. – Bakı: Çaşıoğlu, 2013. 324 s.
4. Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar): [2 cilddə] / Bakı: Azərbaycan nəşriyyatı, c. 1. 1998. 976 s.
5. Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar): [2 cilddə] / Bakı: Azərbaycan nəşriyyatı, c. 2. 1998. 992 s.

6. Azərbaycan Xalq Cümhuriyyəti. Böyük Britaniyanın arxiv sənədləri / elmi red. Y.M.Mahmudov, tərt. ed. N.Ə.Maksvell. Bakı: Çaşıoğlu, 2008. 576 s.
7. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 cilddə] / Red. hey. sədri Y.M.Mahmudov. Bakı: LİDER nəşriyyat, c. 2. 2005. 472 s.
8. Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinin dövlətçilik fəaliyyətinin Tiflis dövrü / R.H.Rüstəmov, Ş.F.Rəhmanzadə, Ə.F.Məmmədov [və b.]. Bakı: Turxan NPB, 2018. 440 s.
9. Azərbaycan Paris sülh konfransında (1919-1920) / Tərt. ed. V.M.Quliyev. Bakı: Ozan, 2008. 244 s.
10. Cəfərli E.Y. Naxçıvanda erməni-azərbaycan münaqişəsi / E.Y.Cəfərli. Bakı: Nurlan, 2009. 280 s.
11. Əliyev N.A. 1917-1920-ci illərdə Azərbaycanda türk-müsəlman soyqırımları ilk mənbələrdə / N.A.Əliyev. Bakı: Nurlan, 2007. 204s.
12. Исторические факты о деяниях армян на Азербайджанской земле / Составители Т.Мусаева, А.Мамедов. Баку: Нурлан, 2003. 358 с.
13. Командуюшему Союзными Силами в Тифлис Генералу Томсону. Министрь Председатель Хойский. (Баку: 3 апреля 1919) // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Arxivi, Fond № 277, siyahı № 2, iş № 57, vərəq 5.
14. Господину Командующему Союзными Силами в гор. Баку Генераль Томсону. За Министра Иностранных Дел Зиядханова. (Баку: 24 февраля 1919) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 970, siyahı № 1, iş № 41, vərəq 13.
15. Минстру Ирастранных Дел Азербайджанской Республики. Минстр Ирастранных Дел Республики Армении Тигранян. (Эриван: 13 февраля 1919) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 970, siyahı № 1, iş № 41, vərəq 57.
16. Министру Иностранных Дель. Дипломатический Представитель при Правительстве Армении. (Эривань: 1 октября 1919) // Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Arxivi, Fond № 277, siyahı № 1, iş № 58, vərəq 73.
17. Mustafa N.Y. 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində azərbaycanlıların soyqırımı: [Elektron resurs] / N.Y.Mustafanın internet səhifəsi. Bakı, 2010. URL: http://nazimmustafa.info/?p=251
18. Nəsibzadə N.L. Azərbaycanın xarici siyasəti (1918-1920) / N.L.Nəsibzadə. Bakı: Ay-Ulduz, 1996. 304 s.
19. Нифталиев И.В. Геноцид азербайджанцев в Иреванской губернии (1918-1920) / И.В.Нифталиев. Баку: Турхан, 2014. 188 с.
20. Paşayev A.Ə. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyaları / A.Ə.Paşayev. Bakı: Çaşıoğlu, 2011. 328 s.
21. Zaqafqaziya Seyminin Müsəlman fraksiyasının və Azərbaycan Milli Şurası iclaslarının protokolları.1918-ci il / Baş red. A.Ə.Paşayev. Bakı: Adiloğlu, 2006. 216 s.

УДК 94(479.24)

*Н.И.Джамалова*
*Институт Истории имени А.А.Бакиханова НАНА*

ПОЛИТИКА ЭТНИЧЕСКОЙ ЧИСТКИ РЕСПУБЛИКИ АРМЕНИЯ (АРАРАТ) ПРОТИВ АЗЕРБАЙДЖАНЦЕВ В 1918-1920 ГГ. И МЕРЫ, ПРИНЯТЫЕ ПРАВИТЕЛЬСТВОМ АДР

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Армения, геноцид, этнические чистки, беженцы

В статье рассматриваются действия правительства АДР против политики геноцида и этнических чисток Республики Армения против азербайджанского народа в 1918-1920 гг. и их результаты. В настоящее время исследуемая в статье проблема весьма актуальна на фоне возникновения вопросов урегулирования азербайджано-армянских отношений после 44-дневной Отечественной войны (2020 г.), определения границ, возвращения азербайджанцев, изгнанных с родины как результат незаконной политики армянских политических кругов.

В статье впервые сгруппированы меры, предпринятые правительством АДР против геноцида и этнических чисток, осуществленных Республикой Арарат (Армения), и дана их оригинальная классификация. Осуществляемые правительством Азербайджана меры по предотвращению геноцида и этнических чисток классифицируются следующим образом: 1) Состоялись обсуждения в парламенте, приняты решения на уровне правительства; 2) На политику великих держав влияли через посольства и представительства; 3) Население, пострадавшее от геноцида и этнических чисток, было защищено; 4) Общественные организации и советы протестовали против геноцида и оказывали помощь пострадавшему населению; 5) Борьба с геноцидом велась за счет собственной инициативы местного населения.

В статью также впервые включены новые архивные документы на английском языке.

UDC 94(479.24)

*N.I.Jamalova*
*Institute of History named after A.A. Bakikhanov of ANAS*

THE ETHNIC CLEANSING POLICY OF THE REPUBLIC OF ARMENIA (ARARAT) AGAINST AZERBAIJANS IN 1918-1920 AND THE MEASURES TAKEN BY THE ADR GOVERNMENT

*SUMMARY*

*Key words:* Azerbaijan, Armenia, genocide, ethnic cleansing, refugees

The article examines the actions taken by the ADR government against the genocide and ethnic cleansing policy of the Republic of Armenia against the people of Azerbaijan in 1918-1920 and their results. In our modern times, the problem studied in the article is quite actual on the background of the emergence of the issues of regulating Azerbaijan-Armenian relations after the 44-day Patriotic War (in 2020), defining borders, returning Azerbaijanis

who were expelled from their homeland as a result of the illegal policy of Armenian political circles.

In the article, for the first time, the measures taken by the ADR government against the genocide and ethnic cleansing carried out by the Republic of Ararat (Armenia) are grouped and their original classification is given. The measures implemented by the Azerbaijani government to prevent genocide and ethnic cleansing are classified as follows: 1) Discussions were held in the Parliament, decisions were made at the government level; 2) The policy of great powers was influenced through embassies and representations; 3) The population affected by genocide and ethnic cleansing was protected; 4) Public organizations and Councils protested against the genocide and provided assistance to the affected population; 5) The fight against genocide was carried out at the expense of the local population's own initiative.

The article also includes new archival documents in English for the first time.

***Daxil oldu: 06.02.2023-cü il***